## Kazus

Cənab D. yerli həftəlik qəzetinin redaktoru idi. 1992-ci ildə o, öz jurnalında "FASTROM şirkəti on milyonlarla talan olunur" başlıqlı məqalə dərc edir. Məqalə "Dələduzluq hesabatlarına" istinadən dövlətə məxsus kənd təsərrüfatı müəssisəsinin icraçı direktoru G.S. tərəfindən qəsdən törədilən çoxsaylı dələduzluq və mənimsəmə faktlarını açıqlayırdı. Məqalədə bildirilir:

*"müəssisənin icraçı direktoru G.S. anbardakı malları əvəzləyir və özünün, dostlarının və ailə üzvlərinin göstərişi əsasında nağd pula satılır. Bu, Allahın və dövlətin qanunlarını tanımayanköhnə quldurluğu xatırladır.*

*İndi xalq soruşur ki, bu, necə baş verə bilib. Bəlkə, FASTROM şirkətində dövləti təmsil edən senator R.T. bu barədə bizə açıqlama verə bilər. Ona vəzifələrini icra etdiyi müddətdə hər ay yüz minlərləpul ödənilib. İndi biz bilirik niyə, başqa sözlə, necə o, dövlət maraqlarını müdafiə edib."*

Növbəti məqaləsində cənab D. yazır:

"FASTROM şirkətinə məxsus xarici maşın ilyarım ərzində həftə sonları üçün senator R.T.-yə onu aeroporta aparıb gətirmək üçün "verilib". Bu təcrübə dayandırıla bilər, amma yaddan çıxarılmayıb".

G.S. və R.T. onlara böhtan atdığı iddiası ilə cənab D.-yə qarşı Cinayət Məcəlləsinin müvafiq maddəsi iləcinayət ittihamı irəli sürürlər. Birinci instansiya məhkəməsi cənab D.-ni böhtan atmaqda təqsirli bildi, onu üç ay azadlıqdan məhrumetmə cəzasına məhkum etdi, G.S. və R.T.-yə 300.000 pul kompensasiyası ödəməyi və qeyri-müəyyən müddətə peşəsi ilə məşğul olma hüququna məhdudiyyət qoydu. Yerli cinayət qanunvericiliyinə əsasən qeyd edilən cəzanın tətbiqi mümkündür.Yerli məhkəmə ona əsaslandı ki, prokurorluq tərəfindən G.S.-in əməlləri ilə bağlı iki dəfə araşdırma aparılmışdır və hər iki halda mülki şəxs kimi dövlət əmlakının mənimsənilməsi faktları aşkar edilməmişdir. R.T-yə münasibətdə məhkəmə müəyyən etmişdir ki, onun əmək haqqı 55.000 olmuşdur, yüz minlərlə yox. Eyni zamanda Senatorluğun qaydasına görə, qeyd edilən fəaliyyət növünü həyata keçirən nəzarətçilərə vəzifə səlahiyyətlərinin icrası üçün nəqliyyat vasitəsi və katibə verilməlidir və senatorluq tərəfindən FASTROM şirkətinə bununla bağlı müvafiq müraciət məktubu da təqdim olunmuşdur. Məhkəmə o nəticəyə gəldi ki, cənab D.-nin yazdıqları həqiqəti əks etdirmir.

Cənab D. həmin qərardan şikayət verdi. O bildirdi ki, G.S.-in ittiham olunması üçün əsas olan "Dələduzluq hesabatı" Maliyyə Nazirliyinin inspektorlarının hesabatının və FASTROM şirkətinin direktorlar şurasının üzvlərinin və həmkarlar təşkilatının ifadələrinə əsasəndir. Həmin sənədlərə əsasən, mənimsənilən məbləğ 23.000.000-dan çoxdur.

R.T.-yə münasibətdə cənab D. qeyd etdi ki, birinci instansiya məhkəməsi öz qərarında FASTROM şirkətinə məxsus nəqliyyat vasitəsinin R.T. tərəfindən istifadə olunduğunu təsdiq etmişdir. O bildirdi ki, R.T.-nin bununla bağlı əmək haqqı alması iddiası böhtan deyildi, ancaq onun məbləğində səhvə yol verilmişdir. Apellyasiya məhkəməsi şikayəti təmin etmədi. Bununla belə, proses zamanı özünün təqdirəlayiq hərəkətlərinə görə qeyri-müəyyən müddətə peşəsi ilə məşğul olma hüququna qoyulmuş məhdudiyyət götürüldü.

Cənab D. özü Avropa Məhkəməsinəmüraciət edərək Konvensiyanın 10-cu maddəsi ilə təsbit olunmuş ifadə azadlığı hüququnun pozuluğunu iddia etdi. Cənab D.-nin ölümündən sonra onun arvadı xanım D. Avropa Məhkəməsinə müraciət edərək prosesi davam etdirmək niyyətini bəyan etdi.

Cənab D. məhkum olunmasına baxmayaraq, G.S. tərəfindən qəsdən törədilmiş mənimsəmə faktları ilə bağlı məqalələr dərc etdirməkdə davam etdi. Bundan başqa, o, G.S. və R.T-yə ödənilməli olan kompensasiyanı da ödəmədi. Onun açıqlamalarının nəticəsi olaraq Parlamentinin sui-istifadə hallarının araşdırma komissiyası prokurorluğa müraciət edərək bu məsələnin araşdırılmasını xahiş etdi. Bir sıra qeyri-hökumət təşkilatlarının müraciəti əsasında prokurorluq G.S.-in əməllərini araşdırmaq üçün yenidən yoxlama başladı. Cənab D.-nin məhkum olunmasından sonra digər kütləvi informasiya vasitələri, eləcə də dövri mətbu nəşrlər qeyd edilən dələduzluq halları barədə məqalələr çap etdilər. Bir çox qəzetlər Cənab D.-nin məhkum olunmasını pressaya təzyiq vasitəsi kimi qiymətləndirdi.

Cənab D.-nin ölümündən üç il sonra Baş Prokuror böhtan atılmaması əsası ilə cənab D.-nin məhkumluğunun ləğv edilməsi üçün Ali Məhkəməyə müraciət etdi. Ali məhkəmənin qərarı ilə ərizə təmin olundu. G.S-ə böhtan atılmasına münasibətdə cənab D.-yə bəraət verildi ki, o, vicdanlı davranmışdır. R.T-yə edilmiş böhtana münasibətdə məhkəmə məhkumluğu ləğv elədi, lakin müəyyən etdi ki, o düzgün olaraq məhkum olunub, belə ki, o, məlumatı yoxlamadan məqaləni çap etməklə R.T.-yə zərər vurmaq niyyətində olmuşdur. Bununla belə, cənab D.-nin ölümü ilə əlaqədar icraata xitam verildi.

Avropa Məhkəməsində icraat zamanı hökumət iddia etdi ki, Xanım D. məhkəməyə müraciətində işlə bağlı şəxsi marağının olduğunu iddia etmədiyindən, ancaq mərhum ərinin marağından çıxış edərək sadəcə olaraq işi davam etdirmək barədə bildiriş vermişdir. Ona görə hazırki iş baxışdan çıxarılmalıdır. Eyni zamanda hökumət iddia etdi ki, Ali Məhkəmə G.S.-ə atılmış böhtanla bağlı cənab D.-yə bəraət vermişdir. Bu, onu iddia etməyə əsas verir ki, mərhumun həyat yoldaşı kompensasiya tələbi ilə yerli məhkəməyə müraciət edə bilər. Ona görə hökumət Məhkəmədən xahiş etdi ki, "qurban" olmadığından ərizəni rədd eləsin. R.T-yə münasibətdə Ali Məhkəmənin qərarına gəlincə, hökumət iddia etdi ki, məhkumluq qərarlarını ləğv etmişdir və yeni araşdırmanın nəticəsi olaraq işə ərizəçinin ölümü əsası ilə xitam vermişdir.

**Aşağıdakı suallara cavab axtarırıq:**

1) Xanım D. Avropa Məhkəməsində icraat zamanı Konvensiyanın iddia olunan maddəsinin pozuntusu ilə bağlı qurban statusuna malikdirmi?

2) Ali Məhkəmənin qərarı Konvensiyanın 10-cu maddəsinə əsasən Cənab D.-ni qurban statusundan məhrum edirmi?

3) Avropa Məhkəməsinin hazırki iş üzrə mövqeyi necə olacaqdır.

*Hazırladı: Elnur Həsənov*

**Cavab:** Dalban Rumuniyaya qarşı iş

1. Bəli, malikdir.
2. Xeyr, etmir.
3. Məhkəmə 10-cu maddənin pozuntusunu tanıyıb.